Qərib MEHDİ



# MƏRDƏKAN ESSELƏRİ

**Bu ilin mart ayında Mərdəkan qəsəbəsində yerləşən Veteranlar xəstəxanasında müalicə olunarkən bu esseləri qələmə aldım.**

**Müəllif**

## *TELEFON NÖMRƏSİ: 254-35-52*

Yenə səhhətimdə problemlər baş qaldırıb. Yaxşı bilirəm ki, üzləşdiyim hal çoxsəmtli, çoxrəngli təzyiqlərlə bağlıdır. Bahalı sanatoriyalarda dincəlmək və müalicə olunmaq imkanım yoxdur. Üz tutacağım yerin ünvanı bəllidir: Mərdəkan qəsəbəsi, əmək veteranlarına məxsus sanatoriya tipli xəstəxana.

Martın birinci ongünlüyü arxada qaldı. İkinci ongünlüyün ikinci günündə xəstəxananın qoşataylı dəmir darvazasından həyətə girdim. Dördüncü dəfə idi ki, bura gəlirdim. Tanış mənzərə: asfalt döşəməli xiyabanlar, farağat komandasında dayanmış yaşıl geyimli ağaclar, maşınlardan düşüb iş başına tələsən həkim-sanitar heyəti əhvalımı yeni mühitə köklədi. Əməliyyat qeydiyyat otağından başlayacaqdı. Hər dəfə olduğu kimi. Yəqin bu dəfə də həmin düşündürücü sorğunu eşidəcəyəm.

Qeydiyyat otağında gülər üzlü, sərv boylu Fəridə xanım yeni gələnləri bir-bir qeydiyyatdan keçirir. Mənim də növbəm çatır. Onlardan soruşduqlarını məndən də soruşur:

- Zəhmət olmasa, telefonunuzu deyin.

Mən üstümdə götürdüyüm cib telefonumun nömrəsini deyirəm. O, mənalı şəkildə üzümə baxıb sözümə düzəliş verir:

- Bizə ev telefonunuz lazımdır.

Düzəlişin nəyə xidmət etdiyini anlayıram. Əlacım nədir, sorğusunu cavablandırıram:

- 254-35-52.

Niyə məhz ev telefonu?.. Başa düşüləndir. Hər ehtimala qarşı. Birdən  Evə xəbər verərək məcburiyyətində qalarlar.

**Mərdəkan,
12 mart 2019-cu il.**

## *DƏRMAN... DƏYİRMAN...*

Mərdəkanda əmək veteranlarının xəstəxanasında müalicə olunuram. Qarşı-qarşıya duran tərəflər qulluğumdadırlar. Həkim dərmanı, Fələk isə dəyirmanı ilə. Həkim dərmanı ilə xəstəliyini dəf etməyə, ömrümü uzatmağa çalışır. Fələk isə dəyirmanı ilə ömrümü üyüdüb qurtarmaq inadından əl çəkmir. Görək, dərman dəyirmanın qarşısında nə qədər tab gətirə biləcək?!..

**Mərdəkan,
21 mart 2019-cu il**

## *XƏYAL*

21 mart - Novruz Bayramı axşamı. Mərdəkan xəstəxanasında özümə məxsus palatada tək oturmuşam. Bayram axşamında şənlənmək, deyib-gülmək, yeyib-içmək üçün, icazəli-icazəsiz - xəstələrin hamısı evlərinə gedib. Danışmaq üçün bir adam tapmıram.

Yeməkxana xidmətçiləri mənim üçün kasıbyana bayram süfrəsi bəzəyiblər. Nemətlər mənə baxır, mən də onlara. Qəlbimi bir qüssə dumanı bürüyüb. Tək olanın yükü ağır olur - çək görüm, necə çəkirsən?! Tanrının təamını belə, tək yemək olmur. Hazır atalar sözünün (meşədə aslan da tək olmasın) qatqarına öz möhürümü vurdum: meşədə aslan, xəstəxanada xəstə də tək olmasın. Görəsən, bu nə taledir mən yaşayıram?.. Bu təkliyin qalasını uçuran bir möcüzə arzulayıram.

Birdən Xəyal məni çaşdırır. Bərk həyəcanlanıram. Ürəyim şiddətlə döyünür. ...Gördüyüm gerçəkdir, yoxsa Xəyal? Qeybdən süfrəmə məni təklikdən qurtaran nurlu bir əl uzanır. Heyrət içində pıçıldayıram: Bu, Sənsənmi, İlahi?! Yoxsa məsləhət bildiyin başqa birisinin əli?!

Bu möcüzəli mənzərə nə qədər çəkəcək? Deyəsən, reallıq qəlbimin qapısını döyür.

Çəkilmə, Xəyal!..

**Mərdəkan,
21 mart 2019-cu il.**

## *GÜNƏŞ MƏNDƏN KÜSÜB?..*

Xəstəxana həyatı darıxdırıcı olur. Xüsusilə havaların üzü döndəndə. Mən səhər-səhər günəşli havada gəzməyə öyrəncəliyəm. Amma neçə gündür təmiz hava almaqdan, günəşin parlaq nurunu içməkdən məhrumam. Deyəsən, günəş məndən küsüb... Bəlkə də, araya girən var.

Neçə gündür dəli küləklər ağacların saçını yolub zorla rəqsə dəvət edirlər. Ağaclar zora müqavimət göstərə bilmirlər. Bir tərəfdən də qara bulud qara çadra kimi günəşin üzünü örtüb. Araya girən üçlüyün biri də yağışdır. O da aramsız olaraq çiləyir. Məqsədim günəşi görmək, onun şəfəqinə bələnməkdir. Bu arzuya qarşı duranlar məni ev (palata) dustağı ediblər.

Şöbə müdiri Gülşən xanım, həkimim Gülnarə xanım, tibb bacısı Sadəgül xanım, təsərrüfat işçisi Gülgəz xanım öz qayğı və nəvazişləri ilə könlümü kədərdən azad etməyə çalışırlar. Palata yoldaşım çox gəzən, çox bilən Cavanşir bəy özünün maraqlı söhbətləri ilə təbiətin "paxıllarını" unutmağı, hətta bağışlamağı məsləhət görür. İnandırır ki, "araya girənlərin əməli uzun çəkmir. Günəş nə səndən, nə də bizdən küsüb. O, yenidən parlaq işığı ilə görüşümüzə gələcək. Araya girənlərin pislikləri özlərinə qalacaq".

Məgər onlar eşitməyiblər ki, hələ eradan əvvəl filosof Diogen onunla günəş arasına girən Fateh İsgəndərə qorxmadan demişdir: "Bir az kənara çəkil ki, günün qabağını tutmayasan".

Bu səhər gözlərimi açanda hər tərəfim parlaq işığa qərq olduğunu gördüm. Dəli külək də, qara bulud da, çılğın yağış da təpintiyə dözməyib aradan çıxmışdılar. Günəş pəncərədən mənə baxıb gülümsəyirdi. Sevindim. Deməli, günəş məndən küsməyibmiş. Axı böyüklər kiçiklərdən küsmürlər...

**Mərdəkan,
21 mart 2019-cu il.**

## *GÜL, YOXSA DUA?..*

Bu yazım bağban, rəhmətlik Məşədi Əli Ələsgəroğlu haqqındadır. Ancaq mövzuya keçməzdən əvvəl bir neçə insanı xatırlamağa, onların da haqqında söz deməyə ehtiyac duydum.

Mərdəkan qəsəbəsində yerləşən veteranların xəstəxanasına davamlı gəlişimdən istifadə edib ziyarətlərdə də bulunmuşam. Onlardan biri yazıçı Seyran Səxavət və şair Xosrov Natillə Xəzər dənizinin görüşünə getməyimdir.

Seçilən insanlardan olan, sınaqlı seyid Mir Möhsün Ağanın möhtəşəm məqbərəsini elə birinci gəlişimdə ziyarət etmişəm. Nəzir paylayıb, problemli səhhətim üçün ruhundan, əddindən şəfa diləmişəm. Məqbərəsinin tikilib başa çatmasında dövlətlə birgə xalq da maddi köməyini əsirgəməyib.

Sonrakı yayda məşhur Azərbaycan milyonçusu, mesenat, öz pulu ilə Avropa arxitekturası ilə ayaqlaşan binalar tikdirən; maarif, mədəniyyət və neft sənayemizin inkişafında müstəsna rol oynayan Hacı Zeynalabdin Tağıyevin sadə məzarını ziyarət etməkdə palata yoldaşlarım mənə şərait yaratmışdılar.

Düzünü deyim ki, Hacının uyuduğu məkana, simicliklə qurulan sinə və baş daşlarına baxanda bərk təəssüfləndim. O, təmənnasız əməllərinə, ehtiyacı olanların harayına yetməsinə, özü ziyalı olmasa da, milli ziyalılara dayaq durmasına görə "Millət Atası" titulu qazanmışdı. Bərəkətli yeraltı sərvətinin "bir qaşıq" neftindən qazanc götürən Alfred Nobolina adına təsis olunan mükafat dünyanın ən yüksək çoxsahəli mükafatı sayılır. O neftin sahibinin adına isə dünyanı əhatə edən belə bir ödül - "Hacı Zeynalabdin adına mükafat" indiyədək təsis olunmayıb. Halbuki o, buna layiqdir. Əvəzində Sovet sistemi çörək verən Millət Atamızın Sara adlı qızını dilənçiliyə düçar edib bir tikə çörəyə mötac qoydu. Dünyanın gərdişidir də...

Hacı Əlinin məzarı... Bir az da səbr edək. Hələ dolayı yolla mövzu ilə bağlı fikirlərimi tamamlamamışam.

Veteranlar xəstəxanasının el arasında başqa bir adı da var - Teymur Quliyev xəstəxanası. Görünür, burada istismara verilən iki çoxmərtəbəli korpus Teymur Quliyev Azərbaycan SSR Nazirlər Sovetinin sədri olan vaxtı tikilib. İstinad da ona işarədir.

Xəstəxananın ərazisi hektarları ölçüyəgəlməz (mənim üçün) bir sahəyə malikdir. Esselərimin birində dediyim kimi, sahə başdan-başa şam ağaclarına bürünüb. Səs-küydən uzaq olan bu yerin təmiz havası can dərmanıdır. Necə deyərlər, bura lap ölüb-qalmalı yerdir. Bağın yuxarı hissəsində bir neçə əncir ağacı da var. Yayın son ayında bu nemətdən xəstələr gərəyincə barınırlar.

Xəstəxananın baş həkimi Xuraman xanım iki il olar ki, bu vəzifədə çalışır. Fəaliyyətindən, işçilərə və xəstələrə qayğısından hamı ağızdolusu danışır. İkinci binanın təmiri başa çatdıqdan sonra vəziyyət bir az da yaxşılaşacaq. Deyəsən, bir az dərman çatışmazlığı hiss olunur. Hələ onunla şəxsən tanış olmasam da, haqqında eşitdiyim xoş sözləri bu yazımda əks etdirməkdən məmnunluq duydum.

Zirək, şirindil yeməkxana işçilərinin adlarını çəkməsəm, günaha batmış olaram. Yeməkxanın rəisi Nizami Cəfərov, nəzarətçi-həkim Gülnar Abdullayevadır. Aşpazlardan Sevinc Kərimova, Ülfət Məmmədova, Mehriban Əsədullayeva və Zenfira Nağıyevanın bişirdiyi xörəklər tamlıdır. Bu təamları Abidə, Firuzə, Yeganə, Təhminə və Mayisə xanımlar açılan süfrələrə gülərüzlə daşıyırlar. Mətbəx işçilərindən Zülfiyənin, Zəminənin, Afətin, Təhminənin (Cəfərova) əməkləri də təqdirəlayiqdir. Məhz onların sayəsində xəstələr pəhrizyönlü xörəkləri iştahla yeyirlər.

Nəhayət, hədəflədiyim fikrə çatdım. Bu geniş, yarlı-yaraşıqlı bağda bircə məzar var. Kiçik baş daşına adı, soyadı və ömür tarixi yazılıb: Məşədi Əli Ələsgər oğlu, 1857-1944. səksən yeddi il ömür sürüb. Görəsən, kimdir bu adam ki, ümumi məzarlıqda deyil, təktənha sanatoriya tipli xəstəxananın geniş bağında, hüzurunda dayanan şam ağacları arasında dəfn olunub. Bağban. Tərcümeyi-halını gərəyincə bilmirəm.

Eşitdiklərimdən onu öyrəndim ki, bu geniş bağı - meşəyə bərabər bir bağı o salıb, onları böyüdüb ərsəyə yetirib, o ağacların dibini belləyib, yumşaldıb, qurumuş budaqlarından o təmizləyib. Günəşi göydən gəlsə də, suyunu o verib sevimli ağaclarının. Bağın kölgəsini, təmiz havasını təmənnasız paylayıb adamlara.

Bağbanla bağ arasında qəribə bir ünsiyyət, sevgi yaranıb. Elə bunun hesabına öləndə bağbanı yetirmələrindən - ağaclardan ayırmayıblar. Qoca bağbanı insan-ağac kimi tapşırıblar torpağa, tapşırıblar ağaclara...

Kimlərsə bu məzarı tez-tez ziyarət edir, üstünə təzə-tər gül dəstələri qoyur. Mən də rəhmətliyin ziyarətinə gəlmişəm.

Ancaq gülsüz, çiçəksiz. Əvəzində ruhuna dua oxuyub, salavat çevirirəm. Onun ruhunu gül məmnun edərdi, yoxsa dua? Bildiyim qədər müsəlmançılıqda duaya üstünlük verirlər. Allah rəhmət eləsin!.. Ruhu şad olsun!

**Mərdəkan.
23 mart 2019-cu il.**

## *KƏDƏR... ÜMİD...*

Bu da son gün. Müalicə müddətim başa çatırdı. Yola düşmək üçün yır-yığış etdim. Evə - nəvələrimə qovuşmaq istəyim qəlbimi çırpındırırdı. Sözümlə, nəzərlərimlə hər kəslə, hər şeylə - əziyyətimi çəkənlərlə, qulluğumda duranlarla vidalaşırdım.

Müalicə müddəti haqqında arayış və xəstəliyimin tibbi tarixçəsi - epiqriz almaq üçün diqqətli və qayğıkeş həkimim Gülnarə xanımın qəbulunda oldum. (Otaq yoldaşı, həmkarı Saleh həkimi də salamlayıram). Həkimim lazım olan sənədlərimi verib gülümsündü:

- Sizi qoca kişi kimi qəbul edib, cavan oğlan kimi yola salırıq!.. Narazı deyilsiniz ki?

Hələ vaxtilə məşhur çarəçi - loğman İbn Sina həkimin hikməti, müalicə üsulları barədə demişdi:

"Xəstəni mərəzdən xilas etmək üçün cərrah üç vasitədən istifadə etməlidir - neştərdən, dərmandan və sözdən". Gülnarə həkim fikrini çatdırmaqda sözü önə çəkmişdi.

Təşəkkürümün dərinliyini və səmimiliyini çatdırmaq üçün Allahı da özümə qoşdum:

- Şəfalı əlləriniz var olsun, həkim! Allah sizdən razı qalsın!

**Budur, Gəncəyə - doğma ocağa doğru şütüyən avtobusda oturmuşam. Yolumu intizarla gözləyənlər sevinəcəklər. Gəncədən gələndə yüküm kədər idi. Gəncəyə dönürəm, yüküm işıqlı ümiddir!..**

**Mərdəkan,
26 mart 2019-cu il.**